

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 181 (21.842)

26 sentyabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 24-də qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin növbəti qarşılaşmasında "A" qrupunda yer alan Azərbaycan milli komandası ikinci görüşünü keçirib.

Milli Gimnastika Arenasında keçirilən görüşdə Azərbaycan komandası Polşa yığması ilə qarşılaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli komandamızın oyununa baxıb.

Voleybolçu qızlarımız ilk setdə polşalı rəqiblərinə böyük üstünlüklə – 25:14 hesabı ilə qalib gəliblər. Azərbaycan milli komandası ikinci setin ortalarında əldə etdiyi üstünlüyü sona qədər qoruyaraq 25:21 hesabı ilə qələbə qazanıb. Gərgin idman mübarizəsi şəraitində keçən üçüncü set də milli komandamızın qələbəsi ilə başa çatıb – 25:23. Beləliklə, Azərbaycan milli komandası Polşa voleybolçularını 3:0 hesabı ilə məğlub edib.

Azərbaycan Prezidenti İlham Əliyev komandamızın qələbəsini alqışlayıb.

Bu qələbədən sonra Azərbaycan komandası xallarının sayını 6-ya çatdıraraq qrupda birinci yerə yüksəlib.

***Muxtar respublikada sahibkarlığın inkişafı qarşıya qoyulmuş iqtisadi siyasətin prioritetlərindəndir. Bu istiqamətdə ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilmişdir.***

## Sahibkarlıq inkişaf edir, biznes mühiti daha da yaxşılaşır



Ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar liberallaşdırılmış, sahibkarların vergi yükü azaldılmış, elektron xidmətlərin tətbiqi genişləndirilmiş, kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü ilədək torpaq vergisindən başqa, bütün növ vergilərdən azad olunmuşdur. Sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsinin səmərəli mexanizmi formalaşdırılmışdır. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi artaraq 87 faizi ötmüşdür.

Sahibkarlığa göstərilən sistemli dövlət dəstəyi tədbirlərinin nəticəsidir ki, son zamanlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında artım müşahidə edilir. Belə ki, 2017-ci ilin ötən dövrü ərzində 31 yeni sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs qeydiyyata alınmışdır.

Bu gün dövlət tərəfindən özəl sektorun hərtərəfli dəstəklənməsi məqsədilə müxtəlif yardım və təşviq mexanizmləri tətbiq edilir. Belə mexanizmlərdən biri də İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Fondudur. Fond müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlığın inkişafına güzəştli kreditlər ayırmaqla yanaşı, həm də sahibkarlara məsləhət xidməti göstərir.

Güzəştli kreditlərdən istifadə qaydalarının mütəmadi olaraq təkmilləşdirilməsi nəticəsində sahibkarlıq subyektlərinə verilən kreditlərin ümumi həcmi artmış, iş adamlarının kreditlərə çıxış imkanları daha da genişlənmişdir. Cari ilin ötən dövrü ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 14 layihənin maliyyələşdirilməsi üçün 389 min 600 manat həcmində kreditdən istifadə edilmişdir.

Verilən kreditlər iqtisadiyyatın bir çox sahələrinin inkişafında mühüm rol oynamışdır. Müxtəlif sənayeyönümlü 3 layihənin maliyyələşdirilməsinə 155 min manat yönəldilmişdir.

Sahibkarlığa Kömək Fondu tərəfindən maliyyələşdirilmiş layihələr digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsini də əhatə etmişdir. Dövlət maliyyə dəstəyi göstərilmiş layihələr üzrə kənd yerlərində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə nail olunmuşdur. Burada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı əsas götürülmüş, təminatda başlıca rol oynayan kənd təsərrüfatında 11 layihənin maliyyələşdirilməsinə 234 min 600 manat yönəldilmişdir.

Sahibkarlığa Kömək Fondunun xətti ilə bu günə qədər 1233 layihə üçün, ümumilikdə, 134 milyon 593 min 882 manat güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər daha çox kənd təsərrüfatının müxtəlif sahələrinə ayrılmışdır. Həmin vəsait hesabına on minlərlə iş yeri, yüzlərlə müəssisə yaradılmış, bir sözlə, özəl sektorun inkişafı üçün yeni imkanlar açılmışdır.

Muxtar respublikada qadınların və gənclərin iqtisadi fəallığının artırılması, onların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi istiqamətində də müxtəlif tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son illər qadın və gənc sahibkarların sayının artması müşahidə edilir. Qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunması, onların investisiya layihələrinin reallaşdırılmasına Sahibkarlığa Kömək Fondu tərəfindən də dəstək göstərilir. Bundan başqa, fond tərəfindən keçirilən tədbirlərdə, o cümlədən maarifləndirici treninqlər və nümunəvi investisiya layihələrinin təqdimatında gənclərin və qadın sahibkarların iştirakı təmin edilmiş, onlara investisiya layihələrinin hazırlanmasında metodik köməkliklər göstərilmişdir.

Cari ilin ötən dövrü ərzində işgüzar əlaqələrin inkişafı və sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi istiqamətində mütəmadi tədbirlər davam etdirilməkdədir.

Ölkə daxilində və xaricində təşkil edilən müxtəlif tədbirlər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği ilə yanaşı, yerli sahibkarların işgüzar əlaqələrinin daha da genişləndirilməsinə, sahibkarların istehsal etdiyi məhsulların satışının dəstəklənməsinə xidmət edir. Bu istiqamətdə həm ölkə daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Bu tədbirlərin keçirilməsi istər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər iqtisadiyyatın prioritet sahələrinə investisiya qoyuluşunun artmasında, sahibkarlar arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində öz müsbət təsirini göstərməkdədir. Keçirilən biznes forumları, yerli iş adamlarının tanıdılması, məhsulların xarici bazarlara çıxarılması, işgüzar müqavilələrin imzalanması onların xarici işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir.

Yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə 2017-ci ilin ötən dövrü ərzində Çexiya, Almaniya, Türkiyə, Gürcüstan, Belarus, İtaliya, İran, Ukrayna, Fransa, Finlandiya, Latviya, Rusiya, Macarıstan və Polşa kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 17 biznes-forum, sərgi və digər beynəlxalq tədbirdə muxtar respublikadan 89 sahibkarlıq subyektinin 103 nümayəndəsinin iştirakı təmin edilmişdir.

Keçirilmiş sərgilərdə muxtar respublikanın son illərdə əldə etdiyi uğurlar, o cümlədən sənaye, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat, turizm, tikinti və digər sahələrdə qazandığı nailiyyətlər nümayiş olunmuşdur.

Müəyyən olunmuş sahələr üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Koreya və Çin Xalq Respublikasında keçirilən seminarlarda nazirliyin 5 əməkdaşının iştirakı təmin edilmişdir.

Özəl sektorun inkişafına dövlət dəstəyinin vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsidir. Bu baxımdan sahibkarların və sahibkarlıq fəaliyyətinə yeni başlayan şəxslərin maarifləndirilməsi, o cümlədən onlara metodik köməkliyin göstərilməsi, məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti sahəsində biliklərin verilməsi məqsədilə Naxçıvan Biznes Mərkəzi tərəfindən bir çox treninq, konfrans və seminarlar keçirilir, muxtar respublikanın sahibkar və gənc menecerlərinin iştirakı ilə kurslar təşkil edilir. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri haqqında məlumatların asan əldə olunması, onların əlaqələrinin genişləndirilməsinin təşviq edilməsi məqsədilə rəqabətqabiliyyətli məhsul istehsalçıları haqqında məlumatları əks etdirən kataloqlar hazırlanaraq çap edilmişdir.

Sahibkarların hüquqlarının müdafiəsi istiqamətində də cari ilin ötən dövrü ərzində bir çox tədbirlər həyata keçirilmiş, 10 sahibkarlıq subyektinə, ümumilikdə, 4283 nəzarət kitabçası paylanılmışdır. Bundan əlavə, sahibkarlıq fəaliyyətinə maneələr törədilməsi ilə bağlı sahibkarlıq subyektlərindən daxil olan şikayətlərə mütəmadi olaraq baxılmış, şikayətçilər qəbul edilmiş, tələb olunduqda yerində araşdırılmış və zəruri olduqda metodik köməklik göstərilmişdir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, yaxud mövcud olanların fəaliyyəti bərpa edilir. Son illərdə 442 sənaye müəssisəsinin yaradılması, bu müəssisələrdə 371 növdə məhsul istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafına yönəldilmiş kompleks islahatların uğurlu nəticəsidir.

Əlbəttə ki, muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı görülən işlərin həcmi bundan sonra daha da artırılacaqdır. Çünki sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə böyük töhfələr verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Yeni yaşayış binasının tikintisi davam etdirilir

***Kəngərli rayonunun Qıvraq qəsəbəsində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və rahat mənzillərlə təmin olunması məqsədilə cari ilin aprel ayında 48 mənzilli yeni yaşayış binasının tikintisinə başlanılıb.***



Zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olacaq binanın hər mərtəbəsində 2 və 3 otaqlı 8 mənzilin olması nəzərdə tutulub. Binada lift və yanğın təhlükəsizliyi məqsədilə ehtiyat çıxış da inşa olunur.

Yaşayış binasının tikintisi Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsinin inşaatçıları tərəfindən həyata keçirilir. İş icraçısı Hicran Hüseynov bildirdi ki, tikinti işləri başlanandan indiyədək binanın zirzəmi hissəsində və birinci, ikinci, üçüncü mərtəbələrində hörgü işləri başa çatdırılıb. Hazırda dördüncü mərtəbədə beton-karkas işləri yekunlaşıb, divarların və arakəsmələrin hörgüsü tamamlanmaq üzrədir. Hörgü işi başa çatan hissələrdə isə dördüncü mərtəbənin örtük panelləri düzülür.

Tikintidə işlər sürətlə və keyfiyyətlə aparılır.

Hazırda obyektdə kifayət qədər işçi qüvvəsi çalışır. Onlar inşaat sektoru üçün nəzərdə tutulmuş geyim formaları, lazımi avadanlıqlarla təmin olunublar. Qeyd edək ki, tikintidə, əsasən, yerli inşaat materiallarından istifadə olunur.

Ramiyyə ƏKBƏROVA

*Muxtar respublikanın iri yaşayış məntəqələrindən olan Babək rayonunda da hər il yeniləşən kəndlərin sayı artır, sosialyönümlü layihələr uğurla icra olunur. Cari ildə rayonun Payız kəndində kompleks quruculuq işləri aparılıb, məktəb binası əsaslı şəkildə yenidən qurulub, kənd və xidmət mərkəzləri inşa olunub, yol infrastrukturu yenilənib və köhnə dəyirmana ikinci həyat verilərək bərpa olunub. Ötən günlərdə Ali Məclis Sədrinin iştirakı ilə bir gündə 4 yeni sosial obyektin və kənd yolunun istifadəyə verilməsini payızlılar dərin minnətdarlıqla xatırlayırlar.*

*Yeniləşən kəndlərimiz*

# Payızın müasirləşən siması



Babək rayonunun ucqarlarında – Məkkəzdağın sərin mehinin tumarladığı bir kənd var. O kənddən üzüaşağı çay boyunca səpələnən Gülşənabad və Cəhri kəndləri əzəmətli, vüqarlı görünür. Bu kənd çoxlarına doğma ana yurdu, isti ocaqdır. Sərin meşəsini, barlı-bəhərli meyvə bağlarını, füsunkar təbiətini, insanlarının qonaqpərvərliyini sözlə ifadə etməkçün coşqun təbiətli şair olmaq lazımdır. Bu kənd Payızdır. İlin elə bir vədəsində həmin kəndə üz tutmuşduq ki, təbiət bir az miskin, kənd həyatı isə olduqca qaynar idi. Çünki son günlər bu yurd yerinin həyatında əlamətdar hadisə baş verib. Payız müasirləşib, sovet dönəmindən bəri yığılıb qalan sosial problemlər həllini tapıb. Artıq bu kənd öz müasir görkəmi ilə təbiətin indiki ahənginə tabe olmaq istəmir. Fürsətdən istifadə edib redaksiyamızın arxivində qalan və bir neçə il əvvəl Payızda çəkilmiş kənd məktəbinin binasının fotoşəklini oxucularımızla bölüşürük. Gəlin həmin vaxtla indini biz yox, fotolar özü müqayisə etsin…

***Kənd məktəbinin uğurları artır***

Qeyd edək ki, kənd məktəbi 1984-cü ildə inşa olunub.



Payız kənd tam orta məktəbinin əvvəlki görünüşü



Payız kənd tam orta məktəbinin indiki görünüşü

Məktəb kollektivi yeni tədris ilində və yeni məktəbdə uğurların daha da artacağına əmindir. Direktor Turan Məmmədli söhbət zamanı bildirdi ki, ötən tədris ilində məzun olan 9 şagirddən 3-ü, 2016-cı ilin məzunlarından isə 1-i ali, 2-si isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Məktəbdə hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün təşkili də diqqət mərkəzində saxlanılır. Heydər Əliyev adına Hərbi Liseyin kursantı adını qazanan Hüseyn Oğuz və Nihad Səfərli 300-400 intervalında bal toplayıb. Aşağı siniflərdə də nəticələr ürəkaçandır. 500-700 intervalında bal toplayan şagirdlərin sayı kifayət qədərdir.

“Dörd ildir ki, bu dağ kəndinin məktəbində təyinat əsasında çalışıram və tarix fənnini tədris edirəm. Zaman sürətlə dəyişir və bir də görürsən ki, dünən əlçatmaz kimi görünənlər bu gün artıq reallığa çevrilib”, – deyən müsahibimiz Elman Babazadə bildirdi ki, muxtar respublikada sürətlə reallaşdırılan tikinti-quruculuq tədbirləri Payız kəndini də əhatə edib. 2017-ci il 15 sentyabrda Bilik Günü münasibətilə Ali Məclisin Sədri tərəfindən bizə ərməğan edilən və hər cür şəraitə malik olan kənd məktəbi məsuliyyətimizi bir az da artırıb, yüksək nəticələrin əldə edilməsinə stimul verib.

***Bir vaxt var idi, heç nə yox idi...***

Bu yarımbaşlıq altında Payızın dünəni barədə çox danışmaq olar. 63 ildir, evli olan Həsən əmi və Zərxanım nənənin qonağı olub, o günlərdən soraq aldıq. Bizi dağ kəndlərinə məxsus qonaqpərvərliklə qarşılayan bu uzunömürlü ailə tərəfindən süfrəyə halal nemətlər düzülür və ev yiyəsi söhbətə başlayır:

– Təzə “çırpılmış” cəvizdən nuş edin. Payızda elə bir ev tapa bilməzsən ki, həyətində cəviz ağacı olmasın. Ağaclardan bəzilərinin yaşı 50-yə, 60-a çatıb. Dağ kəndlərində yetişən cəvizin dadı isə hər kəsə məlumdur. Babək rayonunun Qaraqala, Qahab kəndlərində sort cəviz tinglərindən ibarət bağlar salınıb. Görün, dövlət bu işdə nə qədər maraqlıdır ki, sahibkarlara güzəştli kreditlər verib, onların suvarma imkanlarını yaxşılaşdırıb. Biz də hər il həyətlərdən bol məhsul tədarük edirik. Kiçik oğlum Alim kənddəki Mədəniyyət Evində çalışır və hər şənbə-bazar günləri həyətdəki alma, armud, cəvizi toplayıb üz tutur bazar və yarmarkalara. Naxçıvan bazarında bu məhsulların öz alıcısı var.

Bəli, vaxt var idi, heç nə yox idi. Hətta ötən əsrin sonlarında cərəyan edən hadisələrə görə kəndimizdəki su dəyirmanı belə, unuduldu. Kim idi dəyirman dalınca qaçan. Ermənı quldurları bizdən bir az yuxarıda yerləşən Buzqov və Gərməçataq kəndlərini mərmi yağışına tutmuşdu. Ay oğul, uzun danışıb ovqatınızı təlx etmək istəmirəm. Ağır günlər yaşamışıq. Şükür, dövran dəyişdikcə bizim də gün-güzəranımız dəyişdi. Sentyabrın 15-də kəndimizdə bir neçə yeni tikilinin açılış mərasimində iştirak edən muxtar respublika rəhbərinin himayəsi və qayğısı ilə köhnə su dəyirmanına da ikinci həyat verildi. Çünki su dəyirmanları ta qədimdən xalq arasında xeyir-bərəkət rəmzi kimi dəyərləndirilib və ən əsası, onlar tariximizin bir parçasıdır. Naxçıvanda isə tarixə, milli kimliyə həmişə sahib çıxılır, onlar qorunaraq hifz olunur.

***Sakinlər minnətdarlıq edirlər***

Qədim xalq sənəti dəmirçiliklə məşğul olan Nurəli Qasımovun dediklərindən:

– İlin elə bir vədəsində kəndimizə təşrif buyurmusunuz ki, sevincimizin həddi-hüdudu yoxdur. Ürəyinizdə nə varsa, hamısını yaddaşınıza, dəftərçənizə qeyd edin. Müstəqillik illərinin bəhrəsini çoxdan görmüşük. İllərdir, muxtar respublikanın bütün yaşayış məntəqələrində olduğu kimi, Payızda da fasiləsiz elektrik enerjisi və təbii qazdan istifadə edilir. Naxçıvan şəhərindən başlayan rahat yol kəndimizdən keçib ən ucqar sərhəd kəndləri olan Buzqov və Gərməçataq kəndlərinə uzanır. Şəxsən mən yolları iqtisadiyyatın, inkişafın qan damarı adlandırardım. Uzun illərdən bəri baxımsızlıq üzündən bərbad hala düşmüş yollarımız müstəqillik illərində yenidən quruldu. Artıq bu sarıdan heç bir çətinliyimiz yoxdur. Bu günlər yaşından asılı olmayaraq, hər bir payızlının xatirində əbədi olaraq qalacaq.

Ceyhun Hüseynov isə məsələyə başqa bir prizmadan yanaşır. Həmsöhbətim deyir ki, mövsümdə yerli və xarici turistlərin ən çox üz tutduqları məkanlardan olan “Payız meşəsi” də məhz bu kənddə yerləşir. Kəndin həyatında baş verən yeniliklər, gözəlliklər həm də gələcəkdə bura turist marağını daha da artıracaq. Növbəti turizm mövsümündə Payıza gələn qonaqlar bu yurd yerindən zəngin təəssüratlarla ayrılacaqlar. Rahat yol, sürətli internet, sinədolusu udmaq istəyəcəyi təmiz hava, təbiətin bəxş etdiyi nemətlər, bir sözlə, turist üçün nə lazımdırsa, o da Payızda var.

***İqtisadiyyatın hədəfi – kənd təsərrüfatı***

Həmid Qurbanov kəndin tanınmış təcrübəli arıçılarındandır. Sahibkar deyir:

– Ötən il keçirilən “Arıçılıq məhsulları – bal” festivalında kəndimizdən bir neçə arıçı ilə yanaşı, mən də iştirak etmişəm. Məhsullarımız alıcılar tərəfindən rəğbətlə qarşılandı. Elə mən özüm də 50 kiloqrama yaxın bal satdım. Dövlət tərəfindən arıçılara lazım olan dərman preparatlarının pulsuz verilməsi bu işə marağı daha da artırıb. Ümumiyyətlə, bu gün kənd təsərrüfatının inkişafına lazımı köməklik göstərilir. Odur, qonşum Mübariz bu il təsərrüfatını genişləndirərək iribuynuzlu heyvanın sayını 20-yə çatdırıb. Cins mal-qaranın bəslənməsində Ələsgər də yaxşı təcrübəyə malik təsərrüfatçılardandır. Yasin və Dilavər Məmmədovlar isə bu il 10 hektar sahədə şum qaldırıblar.

***

Kənd sakini Səbuhi Hüseynov avqustun 3-də Babək rayonunda keçirilən əmək yarmarkasında iştirak edib və göndəriş alaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər peşəsinə yiyələnib. Məşğulluğu təmin olunan gənc saç ustası deyir ki, həmin yarmarkada iştirak edən həmkəndliləri Aytac və Gültəkin də yeni istifadəyə verilən xidmət mərkəzində gözəllik ustası və dərzi kimi çalışırlar.

**Haşiyə:** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” uğurla icra olunur, işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğu təmin edilir.

*Milli poeziyamızın iftixarı olan Xalq şairi Məmməd Arazın başlıca ilham mənbəyi tarixi minilliklərə söykənən və tarix səhnəsində həmişə öz sözü, mövqeyi olan Azərbaycan olub. O Azərbaycan ki “Qayalarda bitən bir çiçək, çiçəklərin içində qayadır”. İndi müstəqillikdən güc alan bu ölkənin hər bir şəhər, qəsəbə və kəndi gündən-günə yeniləşir, inkişaf edir, müasirləşir. Artıq Payız da bugünkü siması ilə müasir Azərbaycan kəndinə nümunədir. Bu inkişaf barədə isə yazılası, deyiləsi çox söz var.*

**Muxtar RZAZADƏ**
***“Şərqin səhəri” qəzetinin redaktoru***






*İstehsal müəssisələri*

## “Zümrüd Tikiş” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini genişləndirib



“Zümrüd Tikiş” MMC öz fəaliyyəti ilə muxtar respublikada alıcı rəğbəti qazanmış istehsal müəssisələrindən biridir. Müəssisənin direktoru Mehrəngiz Əkbərova söhbət zamanı qeyd etdi ki, müəssisə 1997-ci ildə 6 nəfər işçi ilə və cəmi 10-12 ədəd, özü də sovet istehsalı olan avadanlıqlarla fəaliyyətə başlayıb.

Ümumi ərazisi 700 kvadratmetr olan müəssisədə Almaniya, Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib.

Mehrəngiz Əkbərova deyir ki, 2010-cu ildə bizə Sahibkarlığa Kömək Fondundan 560 min manat vəsait ayrıldı. 2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə verildi. 2013-cü ildə isə yeni köynək istehsalı sahəsi yaradılıb. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi 39 ünvanında yerləşən binada yeni istehsal sahəsi yaratmaq üçün təmir-bərpa işləri aparılıb. Layihəyə uyğun olaraq ümumi sahəsi 654 kvadratmetr olan binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları yaradılıb. Köynək istehsalı sahəsində Yaponiya və Türkiyənin müasir texnoloji avadanlıqlar quraşdırılıb. Türkiyənin “Talay makina” şirkəti ilə müqavilə bağlanılıb, istehsal gücü gündə 1000 ədəd köynək olan yeni istehsal sahəsi yaradılıb ki, bu da daxili bazarın tələbatını tamamilə ödəmə gücünə malikdir.

Onu da bildirək ki, müəssisə rəhbəri 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən “Ən fəal işəgötürən” müsabiqəsi üzrə ikinci yerin sahibi olub.

Yeni tədris ili ilə əlaqədar təhsil müəssisələrindən qəbul edilən sifarişlər vaxtında təhvil verilib. Onu da qeyd edək ki, istehsal olunan məhsullar muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərindəki mağazalarda satılır.

Valideynlərlə söhbətimizdən öyrənirik ki, vahid məktəbli formalarının münasib qiymətlərə satılması, keyfiyyətli olması hamının ürəyincədir.

Öyrəndik ki, gün ərzində onlara ölçüləri uyğun olmayan 30-35 şagird müraciət edir. Sifarişlər çox olduğundan formaların çatdırılmasında da gecikmələr istisna edilmir, lakin götürülən öhdəlikləri vaxtında yerinə yetirməyə səy göstəririlər.

Müəssisə bu gün təkcə muxtar respublikanın ali və orta məktəblərinin müəllim və şagirdləri üçün geyim formalarının istehsalı ilə məşğul olmur, həm də hüquq-mühafizə orqanlarından, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən, Naxçıvan Şəhər Yaşıllaşdırma və Sanitar Təmizlik idarələrindən də sifarişlər qəbul edir. Onu da qeyd edək ki, hazırda müəssisədə sifarişə uyğun Naxçıvan Muxtar Respublikası Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin, eləcə də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti əməkdaşları üçün xüsusi geyim formaları tikilir.

**Ramiyyə ƏKBƏROVA**

*Təhsil millətin gələcəyidir*

# Məqsəd təhsilli və vətənpərvər gənclər yetişdirməkdir

***2015-ci il oktyabr ayının 6-nı Şərur rayonunun Kürçülü kəndinin sakinləri indi də yaxşı xatırlayırlar. Həmin gün burada tam orta məktəbin və məscidin, kənd və xidmət mərkəzlərinin açılışı olub. Kompleks quruculuq tədbirləri çərçivəsində iki kilometr uzunluğunda avtomobil yoluna asfalt örtük salınıb. Səkkiz su keçidi və beton kanal tikilib. Yaşayış məntəqəsinin rabitə sistemi yenilənib, fiber-optik kabel xətti çəkilib. Elektrik enerjisinin və təbii qazın dayanıqlı verilişi təmin olunub, elektrik və qaz xətləri yenilənib. Kənddə qapalı drenaj xətti qurulub. Həmin gün böyük sevinc hisslərini yaşayanlar içərisində kənd tam orta məktəbinin müəllimlərini və şagirdlərini xüsusi qeyd etmək lazımdır.***

Məktəbin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: ***“Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlərin başlıca məqsədi ondan ibarətdir ki, gələcəyimizin qurucuları olan gənclər təhsilli və vətənpərvər böyüdülsünlər. Kürçülü kənd tam orta məktəbi üçün müasir binanın tikilib istifadəyə verilməsi də bu məqsədə xidmət edir. Ona görə də müəllim və şagirdlər üzərlərinə düşən məsuliyyəti dərk etməlidirlər. Müəllimlər bilməlidirlər ki, onlar gələcəyin qurucularını hazırlayırlar. Şagirdlər isə bilməlidirlər ki, onlar gələcəyin qurucuları kimi yetişməlidirlər”.***



Ali Məclis Sədrinin bu dəyərli tövsiyəsi məktəbin pedaqoji kollektivinin fəaliyyət proqramına çevrilib. Bunun nəticəsidir ki, məktəb binası istifadəyə verilən tədris ilində təhsil ocağını bitirən 5 məzunun 4-ü ali məktəblərə qəbul olunub. Sonrakı il bu nəticə bir qədər də yüksəldilib. Belə ki, 2016-2017-ci tədris ilində 2-si 500-700 intervalında bal toplamaqla məktəbi bitirən 6 məzunun hamısı tələbə adına layiq görülüb. Bu, muxtar respublikanın kənd tam orta məktəbləri içərisində 100 faizlik nəticə əldə edən yeganə təhsil ocağıdır.

Qazanılan uğurun təməlində duran amillər bu gün muxtar respublika sakinlərinə bəllidir: Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsilə göstərdiyi qayğı və diqqət, pedaqoji kadr hazırlığındakı təkmilləşmələr, təhsilin məzmununa yeni pedaqoji təfəkkür baxımından yanaşılması, fənn kurikulumları və təhsil standartlarının tətbiqi, yeni pedaqoji üsullara, informasiya-kommunikasiya texnologiyalarına təlim prosesində geniş yer ayrılması, milli və mənəvi irsimizin öyrənilməsi üçün interaktiv əlaqələrin təşkili, nümunə dərslərinin tədrisi, distant təhsilin reallaşdırılması, beynəlxalq təcrübədən yaradıcı şəkildə istifadə olunması təhsil sahəsində uğurların qazanılmasına şərait yaradıb. Həmin şəraitlə biz də tanış olduq. Yeni dərs ilinin başlanması münasibətilə pedaqoji kollektivi təbrik etdik. Məktəbin direktoru Zülfiyyə Məmmədova bildirdi ki, hazırda 106 şagirdin təhsil aldığı ikimərtəbəli məktəb binası 234 şagird yerlikdir. Burada 13 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 4 elektron lövhəli sinif, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Laboratoriyalar ən müasir təcrübə avadanlıqları və əyani vasitələrlə təchiz olunub. Məktəbin kitabxanasında 3 mindən artıq dərslik və bədii ədəbiyyat vardır. Təhsil ocağında 4 elektron lövhə quraşdırılıb, kompüter otağında internetə qoşulan 19 kompüter dəsti qoyulub.

Lazımi avadanlıqlarla təchiz edilən şahmat otağında şagirdlər şahmatın sirlərinə yiyələnirlər. Geniş idman zalında isə gənclərin digər idman növləri ilə məşğul olması üçün şərait vardır. Məktəbin hərbi kabinəsi əyani tədris vasitələri ilə təchiz edilib. Yeri gəlmişkən qeyd edək ki, təhsil ocağı bu məktəbi bitirmiş şəhid Qulu Sadiqovun adını daşıyır. Məktəbin həyətində kəndin igid oğlunun büstü ucaldılıb. Pedaqoji kollektiv öz fəaliyyətində şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsini diqqət mərkəzində saxlayır. Qulu və onun kimi onlarla şəhidimizin keçdiyi həyat yolunun bugünkü məktəblilərə çatdırılmasına ciddi fikir verilir.

Məktəbin müəllimləri yeni tədris üsullarından istifadəyə və dərslərini canlı şəkildə qurmağa səy göstərir, informasiya-kommunikasiya texnologiyalarının tətbiqini diqqətdə saxlayırlar. Bununla belə, məktəbdənkənar və sinifdənxaric tədbirlərin təşkilinə xüsusi diqqət yetirilir. Bütün bunlar şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılmasında, onların vətənpərvər vətəndaş kimi formalaşdırılmasında, şagirdlərin dövlətçiliyimizə, milli və mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə olunmalarında mühüm rol oynayır.

Dahi öndərimiz Heydər Əliyevin hamımız üçün örnək olan həyat və siyasi fəaliyyətinin gələcəyimizin etibar ediləcəyi bugünkü şagirdlərə öyrədilməsi üçün məktəbdə tədbirlər planı hazırlanıb. Plana əsasən keçirilən tədbirlər öz bəhrəsini verir. İnşa, şeir, rəsm müsabiqələri bu baxımdan diqqəti çəkir. Məktəbdə şagirdlərin fiziki hazırlığına fikir verilir. Bunun üçün də dərsdənkənar məşğələləri xüsusi qeyd etmək lazımdır. Məktəbin şagirdləri rayon və muxtar respublika birinciliklərində uğurlu nəticələr əldə edirlər.

Son illər məktəblərimizdə keçirilən şahmat fənninə maraq göstərən şagirdlər tərəfindən bu idman növünün sirlərini öyrənmək üçün yaradılan şəraitdən səmərəli istifadə olunur. Məktəbin şagirdi Emin Hüseynovun bu sahədə qazandığı uğurlar ürəkaçandır. O, bir neçə şahmat birinciliyində qələbə qazanıb.

Məktəbdə müəllimlərlə də həmsöhbət olduq. Ötən dərs ilinin nəticələrinə görə onları təbrik etdik. İngilis dili müəllimi Aynurə Əliyeva bildirdi ki, bu gün muxtar respublikamızda qabaqcıl təhsil mühiti formalaşdırılıb. Bu da şagirdlərin təhsilə marağını daha da artırıb. Bütün bunların nəticəsidir ki, hər il ali və orta ixtisas məktəblərinə qəbulun nəticələri artır. Bunu bizim məktəbin timsalında da görmək olar. Keçən il 4, bu il isə 6 məzunumuz artıq tələbədir. Onlardan Aysel Qəhrəmanovanın və Şəbnəm Məmmədovanın göstəriciləri daha yüksək olub. Aysel 647 balla Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasında təhsil almaq imkanı qazanıb. Orta məktəbdə oxuyanda o, verilən bütün tapşırıqları vaxtlı-vaxtında və dəqiqliklə yerinə yetirir, sınaq imtahanlarında uğurlu nəticələr göstərirdi. Budur, çəkdiyi zəhmət öz bəhrəsini verib. Təbii ki, burada məktəbdə yaradılmış şərait də başlıca amildir.

Rəşadə Seyidova məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir. O da qazanılan uğurları həmin amillərlə bağlayır. Növbəti tədris ilini daha böyük nailiyyətlərlə başa vurmaq üçün dərs ilinin ilk günlərindən kollektivin öz gücünü səfərbərliyə aldığını bildirir.

Elə məktəbdə görüşdüyümüz valideynlər İnşallah Qəhrəmanov, Eldəniz Məmmədov da bu fikirdədirlər. Onların sözlərinə görə, məktəbin pedaqoji kollektivi ilə valideynlər arasında sıx əlaqə yaradılıb. Bunun nəticəsidir ki, heç bir şagird dərsdən yayınmaq haqqında düşünmür. Hədəf ancaq yaxşı oxumaq, yaxşı təhsil almaqdır. Bunun üçün müəllimlər əllərindən gələni əsirgəmirlər.

Məktəbin direktoru Zülfiyyə Məmmədovanın sözlərinə görə, bu il I sinfə 13 uşaq qəbul olunub. Cari ildə təhsil ocağının XI sinif üzrə 9 məzun bitirəcək. Pedaqoji kollektiv əmindir ki, həmin məzunlar müəllimlərin onlara göstərdiyi etimadı doğruldacaq, muxtar respublikamızda təhsilə göstərilən qayğı müqabilində yüksək ballarla ali məktəb tələbəsi adını qazanacaqlar.

Biz də inanırıq ki, belə də olacaq.

**Muxtar MƏMMƏDOV**

***Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Çinarə Rzayevanın iki cilddə nəzərdə tutulmuş “Hüseyn Cavid və folklor” monoqrafiyasının birinci cildi çapdan çıxıb. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan monoqrafiya Hüseyn Cavid yaradıcılığında folklorun yerinin, həm də folklorun romantizm müstəvisində rolunun müəyyənləşdirilməsi baxımından diqqəti cəlb edir.***

*Yeni nəşrlər*

# “Hüseyn Cavid və folklor” adlı monoqrafiya işıq üzü görüb

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Hüseyn Həşimlinin elmi redaktorluğu ilə nəşr olunan monoqrafiyaya akademik Nizami Cəfərov və AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru Əbülfəz Quliyev rəy vermişlər.




Romantizm ədəbi cərəyanının görkəmli nümayəndəsi olan Hüseyn Cavid yaradıcılığında milli və mənəvi dəyərlərin təcəssümü ədibin bənzərsiz istedada malik olması ilə bərabər, həm də milli mənsubiyyətini, tarixi köklərini unutmaması və unutdurmamasıdır. Ulu öndərimiz Heydər Əliyevin Hüseyn Cavid haqqında dediyi ***“Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitablarıdır”*** fikri də monoqrafiyanın əvvəlində verilmişdir ki, bu da mütəfəkkir şairin yaradıcılığının həmişəyaşarlığından xəbər verir. Azərbaycan xalqının keçmişinin, adət-ənənəsinin əks etdirilməsi baxımından görkəmli şair-dramaturqun yaradıcılığı çox əhəmiyyətlidir. Ədibin öz yaradıcılığında folklor nümunələrindən istifadəsi də məhz bunun təməlində dayanan faktorlardandır ki, bu da Çinarə Rzayevanın “Hüseyn Cavid və folklor” monoqrafiyasının aktuallığının mühüm göstəricisidir. Monoqrafiyada folklor nümunələrindən istifadə məqamları, onların rəngarəngliyi təhlil olunmuşdur.

Aparılan geniş araşdırmalar və tədqiqatlar nəticəsində Hüseyn Cavidin öz fikir və ideyalarını, romantik düşüncələrini məhz mifoloji obrazların vasitəsilə oxuculara çatdırmağa çalışdığı aydın bir şəkildə görünür. Böyük ədibin mifoloji obrazlarla təkrarsız fəlsəfi əsərlər yaratması onun digər romantiklərdən fərqlənməsinin və Azərbaycan romantizm tarixində zirvəyə sahib olmasının əsas səbəblərindən biridir. Bu deyilənlər monoqrafiyada geniş bir şəkildə tədqiq olunmuşdur. Müəllif “İblis”, “İblisin intiqamı”, “Peyğəmbər”, “Şeyda”, “Şeyx Sənan” və digər əsərlərində mifik obrazların xarakterik xüsusiyyətlərinin Hüseyn Cavid tərəfindən necə işləndiyini də əsərləri təhlil edərək izahlar vermişdir.

Çinarə Rzayeva ədibin yaradıcılığında Dərviş surəti ilə bağlı müqayisəli təhlillərə də geniş yer vermiş, bu surətin funksiyalarını və həmin funksiyalardan hansından Hüseyn Cavid yaradıcılığında istifadə edildiyini müəyyənləşdirmişdir.

Monoqrafiyada böyük Cavidin əsərlərində işlənən atalar sözləri və məsəllər, digər folklor nümunələri haqqında geniş məlumat verilmiş, əsərlərin ideya-bədii həllindəki əhəmiyyəti ön plana çəkilmişdir. Həm atalar sözləri, həm də məsəllər ictimai həyat mübarizəsinin kəşf etdiyi həqiqəti əks etdirən hikmətli ifadələrdir ki, bu da əsərin aktual olmasını təmin edir. Ədibin istifadə etdiyi aforizmlərin günümüzdə atalar sözləri və məsəllər kimi istifadəsini də Çinarə Rzayeva öz monoqrafiyasında aydın bir şəkildə ifadə etmişdir.

Hüseyn Cavid yaradıcılığında alqış və qarğışlara da rast gəlinir. Bu, obrazların keçirdikləri hisslərin oxucuya daha canlı çatdırılması ilə bərabər, müəllifin folklora olan marağını da göstərir. Alqışlardan daha çox istifadə etməsi Hüseyn Cavidin humanistliyindən xəbər verir. Bunların hər biri monoqrafiyada özünün daha dolğun izahını tapmışdır.

“Hüseyn Cavid və aşıq yaradıcılığı” adlı bölmədə ədibin əsərlərində müraciət etdiyi, folklorda əhəmiyyətli bir yer tutan aşıq şeir şəkilləri barədə məlumat verilib.

Hüseyn Cavidin yaradıcılığında folklor nümunələrindən geniş istifadə olunması onun xalqının keçmişinə, adət-ənənəsinə olan bağlılığının sübutudur. Monoqrafiya da bu baxımdan təqdirəlayiqdir. Eyni zamanda bu, Cavid yaradıcılığının ədəbiyyat üçün nə dərəcədə əhəmiyyətli bir yerə sahib olduğunu göstərir.

Onu da qeyd edək ki, Çinarə Rzayeva Hüseyn Cavid yaradıcılığının məhsuldar tədqiqatçısı, bununla bağlı bir neçə kitabın müəllifidir. Yeni nəşr isə Cavid və folklor məsələsinə həsr etdiyi ilk kitabıdır və bu sahədəki tədqiqatlarını bu gün də davam etdirir. Biz də Cavid yaradıcılığında folklorun fərqli tərəflərinə işıq tutacaq növbəti araşdırmalarında ona uğurlar arzulayırıq.

**Vəfa QASIMOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

# Sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilib

***Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilib.***

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin şöbə müdirləri Yasin Əliyevin, Elxan Novruzovun, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədovun çıxışları olub. Çıxışlarda bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar avqustun 26-da keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı bir sıra işlər görülüb. İlk növbədə, şəhərlərarası və rayonlararası avtobusların hərəkət qrafiki bir daha nəzərdən keçirilib, qrafiklər daha da təkmilləşdirilib. Muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən avtobus və taksilərin Daxili İşlər Nazirliyi ilə birlikdə texniki müayinəsi təşkil edilib. Müəyyən olunan nasazlıqlar aradan qaldırılıb, uzaq dağ və sərhəd kəndlərinə işləyən avtobuslara lazımi köməkliklər göstərilib. Xarici görünüşü uyğun olmayan avtobuslara təmir üçün vaxt verilib.

Taksi ilə sərnişindaşımanın vəziyyəti xüsusilə nəzarətdə saxlanılıb. Taksi sürücülərinin geyim formasına, istifadə etdiyi nəqliyyat vasitəsinin təmizliyinə, sərnişinlərlə rəftarına, tarif qiymətlərinə əməl olunmasına nəzarət gücləndirilib.

Qeyd edilib ki, sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün avtovağzalların payız-qış mövsümünə hazırlığına diqqət artırılıb, istilik sistemləri yoxlanılaraq işlək vəziyyətə gətirilib, mövcud çatışmazlıqlar aradan qaldırılıb. Hazırda payız-qış mövsümündə avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət edilməsi üçün sərnişindaşıma fəaliyyəti göstərən avtobus və taksilərə Naxtel 4G, GPS sistemi quraşdırılması işləri davam etdirilir. Həmçinin şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyətini təmin etmək üçün bütün imkanlar səfərbər edilib və payız-qış mövsümünü qüsursuz başa vurmaq, əhaliyə fasiləsiz nəqliyyat xidməti göstərmək üçün hazırlıq işləri davam etdirilir.

Təsərrüfathesablı Nəqliyyat İdarəsində mexanik və çilingərlərdən ibarət təmir briqadası yaradılıb, bu dövrdə qarşıya çıxacaq nasazlıqları aradan qaldırmaq üçün idarənin təmir sexləri hazır vəziyyətə gətirilib.

Şəhər sakinlərinin marşrutdan rahatlıqla istifadə etmələri üçün 2 nömrəli marşrut keçdiyi xətdə üç, 6 nömrəli marşrut xəttində isə iki yeni dayanacaq yaradılıb.

Sonra seminar-müşavirə iştirakçılarının sualları cavablandırılıb.

**Nail ƏSGƏROV**

*Son illərdə sağlam həyat tərzini seçən insanların sayı getdikcə artır. Bunun bir çox səbəbi olsa da, əsas səbəblərdən biri kimi insanların daha çox oturaq həyat tərzinə məruz qalması göstərilir. Xüsusilə müasir dövrdə texnoloji imkanların genişlənməsi bir çox sahələrdə fiziki hərəkətlərin məhdudiyyətini artırıb. Bu baxımdan indi əksər insanlar daha çox hərəkət manevrlərini özündə birləşdirən məşğuliyyət növlərinə üstünlük verirlər. Onlardan biri də velosiped sürməkdir. İndi dünyanın istənilən ölkəsində velosipeddən idman və yaxud nəqliyyat vasitəsi kimi xeyli istifadə edənlər var. Velosipedin istər sərfəli nəqliyyat vasitəsi, istərsə də sağlam həyat tərzi baxımından faydaları çoxdur. Bəs, ümumiyyətlə, bu məşğuliyyət növü haqqında nə bilirik?*

## *Velosiped:* sağlam həyat tərzi, sərfəli nəqliyyat, ekoloji təmizlik



Əvvəlcə qeyd edək ki, "velosiped" sözü fransız dilindən tərcümədə "tez ayaq" deməkdir. Velosiped tikiş maşınından sonra dünyada kütləvi şəkildə istehsal edilib yayılan ikinci texniki məhsul hesab olunur. Bəzi mülahizələrə görə, hazırda dünyada yarım milyarda qədər velosiped mövcuddur. Kiçik ölçüsü, sərfəli qiyməti və yanacağa ehtiyacının olmaması onun belə geniş yayılmasının əsas səbəblərindəndir.

Velosipedin tarixi 500 il bundan əvvəl Leonardo da Vinçinin velosiped şəklini təsvir etməsi ilə başlasa da, ilk ixtira 1817-ci ildə Almaniyanın Mahhaym şəhərində yaşayan Baron fon Drays tərəfindən baş tutmuşdur. Bu, idarə edilən, tamamilə taxtadan düzəldilmiş, lakin pedallara malik olmayan bir velosiped idi. İlk model yoxuşlu küçələrdən aşağı düşmək üçün ayaqları yerə dirəyib təkan verərək hərəkətə gətirilirmiş. 1861-ci ildə velosipedin ön təkərlərinə pedallar taxılmış, 1888-ci ildə isə pedallar arxa təkəri hərəkətə gətirən zəncir ilə bərkidilmişdir. 1842-ci ildə velosipedlərin təkərlərinə rezin şinlər taxmaq ideyası ortalığa çıxanda artıq velosipedlərin görünüşü müasir formaya düşmüşdür. Bu faktı da qeyd edək ki, ilk velosiped yarışları 1819-cu ildə İsveçdə, 1829-cu ildə Almaniyada keçirilmişdir. 1893-cü ildən isə velosiped idmanı üzrə dünya, Avropa və digər yarışlar keçirilməyə başlanılır. 1900-cü ildə Parisdə Belçika, ABŞ, Fransa, İtaliya və İsveçrənin velosiped idmanı təşkilatları tərəfindən Beynəlxalq Velosipedçilər İttifaqının əsası qoyulmuşdur. Bu ittifaq Həvəskar Velosiped İdmanı və Professional Velosiped İdmanı üzrə iki beynəlxalq federasiyadan ibarətdir.

Azərbaycanda isə velosipeddən istifadənin tarixi 1930-cu ildən başlayıb. İlk vaxtlar velosiped məktəbli və tələbələr arasında populyarlıq qazanıb. Bu səbəbdən də velosipeddən məktəblərarası və universitet daxilində yarışlarda istifadə olunurdu. Ölkəmizdə daha irimiqyaslı velosiped yarışlarının keçirilməsi ötən əsrin 40-cı illərinin əvvəllərinə təsadüf edir. Bu dövrlərdə artıq respublika daxilində velosipedçilər arasında spartakiadalar keçirilməyə başlanmışdır. Yerli spartakiadalarda qüvvəsini sınayan Azərbaycan velosipedçiləri qalib gəldikdən sonra respublika spartakiadasına vəsiqə alırdılar. Bakının qadın və kişilərdən ibarət yığma komandaları yerli spartakiadalarda qalib gələrək Ümumittifaq və Zaqafqaziya spartakiadasında iştirak edirdilər. 1950-ci illərdən başlayaraq Azərbaycanın velosiped idmanında əsaslı irəliləyişlər əldə olunmağa başlanmışdır. Artıq Azərbaycan idmançıları SSRİ çempionatında və dünya birinciliyində qüvvələrini sınayırdılar. 1980-ci ildə ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakıda dünya standartlarına uyğun respublika velotreki tikilib istifadəyə verilmişdir. Uzunluğu 333 metr olan bu velotrekdə bir sıra ümumittifaq yarışları keçirilmişdir. Azərbaycan velosipedçilərindən ibarət nümayəndə heyəti 1985-ci ildə Moskvada keçirilmiş konfransa qatılmışdı. 1991-ci ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 850 illiyinə həsr olunmuş təntənəli tədbirlər çərçivəsində Sankt-Peterburq-Gəncə arasında 4 min kilometr məsafədə velosiped yürüşü təşkil olunmuşdur. 26 şəhərin təmsil olunduğu bu yürüşdə ölkə velosipedçiləri uğurla iştirak etmişlər.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə, xüsusilə 1997-ci ildən cənab İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildikdən sonra Azərbaycanda olimpiya hərəkatı sürətlə inkişaf etməyə başlamışdır. Həmin ildən cənab İlham Əliyevin uğurlu rəhbərliyi, səy və təşəbbüsü sayəsində qısa müddətdə Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işi müvəffəqiyyətlə aparılmışdır. Ölkədə müasir idman komplekslərinin tikintisi başa çatdırılaraq idmançıların istifadəsinə verilmiş, peşəkar idman federasiyaları, o cümlədən Azərbaycan Velosiped İdmanı Federasiyası yaradılmışdır. Eyni zamanda bu federasiyanın veloparkı yenilənmişdir. Bu isə ölkəmizdə beynəlxalq səviyyəli velosiped yarışlarının keçirilməsinə imkan vermişdir. 2011-ci ildə isə ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümündə "Böyük Qafqaz" veloyürüşü təşkil edilmişdir. Bunu da vurğulamaq istərdik ki, Azərbaycanda velosiped idmanına marağın böyük olması nümunələrindən biri də Bakı Dövlət Universitetində yerləşən və 40 ildən artıq fəaliyyət göstərən beynəlxalq miqyaslı Velosiped İdmanı Muzeyidir.

Bu faktları oxucularımızla bölüşməkdə məqsədimiz odur ki, velosiped istər idman növü kimi, istərsə də nəqliyyat vasitəsi kimi faydalı və sərfəli məşğuliyyət sahəsidir. Hətta dünyanın inkişaf etmiş böyük şəhərlərində velosipeddən istifadə kütləvi xarakter alıb, velosipedlər üçün xüsusi yollar, dayanacaqlar salınıb, kirayəsi ilə məşğul olan özəl qurumlar fəaliyyət göstərir. Kirayəyə verilən velosipedlərdən turistlər geniş şəkildə istifadə edirlər. Muxtar respublikamızda da sakinlər tərəfindən velosiped sürməyə maraq artıb. Ancaq etiraf edək ki, bu maraqdan daha çox azyaşlılar üçün istifadə etmişik. Orta və ya nisbətən yaşlı insanları velosiped sürərkən gördükdə, mental duyğularımızı tez dilə gətirmişik. Düşünmüşük ki, insan yaşlandıqca sağlamlığa daha çox ehtiyac duysa da, "ağır oturub batman gəlmədidir". Bu zərərli düşüncənin təsdiqidir ki, Avropada çox sayda 80-90 yaşlı insanları çəliksiz və ya qoltuq ağacı olmadan gəzən görmək olar, bizdə isə əksinə. Halbuki bizim yaşadığımız ölkənin iqlimi, istifadə etdiyimiz qida məhsullarının keyfiyyəti, sağlam adət-ənənələri Avropa həyat tərzini xeyli geridə qoyur. Sadaladığımız nüanslar həm də regionumuzu uzunömürlülər diyarı kimi tanıdıb. Amma iş sağlam həyat tərzinin təbliğinə gəldikdə, ictimai qınağı önə gətiririk. Məsələn, bizdə kitab oxumamağa görə heç vaxt cəmiyyətin qınağı ilə rastlaşmazsan, ancaq velosiped sürsən, yaxud da şəhərin küçələri ilə qaçsan, o zaman gərək yad və tanış baxışların sənə diqqətlə tuşlanmağına alışasan. Lakin yazını pozitiv notlarla bitirəcəyimə qərar vermişəm. İndi şəhərimizdə velosiped sürənlərin sayı çoxalıb. Xüsusilə axşam saatlarında bu işi özünün sevimli məşğuliyyətinə çevirənlər hər keçən gün daha da artır. Onu da qeyd edək ki, muxtar respublikamızda indiyədək bir neçə dəfə velosiped üzrə idman yarışları keçirilib.

Velosiped satışı ilə məşğul olan mağaza sahiblərindən aldığımız məlumatlara görə, son bir neçə ildə böyüklərin bu nəqliyyat vasitələrinə marağı çoxalıb. Xüsusilə yay fəslində bu maraq daha da önə çıxır. Ona görə də gəlin bu məşğuliyyətdən özümüzü uzaqlaşdırmayaq.

*Unutmayaq ki, ayağımızla fırlatdığımız hər pedal orqanizmin sağlamlığına, ekologiyanın qorunmasına, vaxta qənaət etməyə öz töhfəsini verəcək.*

**Səbuhi HƏSƏNOV**

## Naxçıvan Dövlət Kukla Teatrı yeni mövsümü *"Göyçək Fatma"* tamaşası ilə açıb

*M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı yeni teatr mövsümünü "Göyçək Fatma" tamaşası ilə açıb.*



Qeyd edək ki, Azərbaycan xalq nağılı əsasında hazırlanmış "Göyçək Fatma" tamaşası Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, tanınmış şairə-dramaturq Kəmalə Ağayevanın nəzmlə yazdığı pyes əsasında səhnələşdirilib.

Əvvəlcə teatrın bədii rəhbər-direktoru, Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov çıxış edərək balaca tamaşaçılara 28-ci mövsümdə baxacaqları tamaşalar haqqında məlumat verib. Xalq artisti bildirib ki, bu gün mövsümün açılışında tanınmış şairə-dramaturqumuz Kəmalə Ağayevanın özü də iştirak edir.

Sonra teatrın bədii şurasının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov Naxçıvan Dövlət Kukla Teatrının keçdiyi yaradıcılıq yolu haqqında danışıb. Qeyd edib ki, teatr uşaq və yeniyetmələrin milli və mənəvi dəyərlər ruhunda tərbiyəsində, estetik zövqünün formalaşmasında mühüm rol oynayır. Teatr bu illərdə xarici ölkələrdə də qastrol səfərlərində olub və teatr festivallarında iştirak edərək tamaşaçı rəğbəti qazanıb.

Nağılda olduğu kimi, "Göyçək Fatma" tamaşasında da ictimai məsələlər məişətdə baş verən ədalətsizliklər fonunda göstərilir. Kiçik bir ailədəki münaqişə getdikcə böyüyür, bütün xeyirxah qüvvələr ədalətsizlik əleyhinə çevrilir. Fatma gözəl və nəcib insani sifətlərə malikdir. Lakin bu gözəllik, nəciblik anası öldükdən sonra ona fəlakət gətirir. Tamaşanın nikbin sonluqla bitməsi xeyrin şər qüvvələr üzərində qələbəsi kimi səslənir.

Tamaşada Göyçək Fatma rolunu gənc aktrisa Ləman Əhmədova təbii təqdim edir. Bu, onun səhnədə ilk roludur. Aktrisalar Ulduz Süleymanova (ögey ana), Vəsmə Quliyeva (ögey bacı) balaca Fatmanın taleyinə acımayan, ona əzab verən personajlar kimi yadda qalırlar.

Teatrın tanınmış aktyoru İlqar Babayevin Qarı nənə obrazı xüsusilə maraqlıdır. Tamaşada maskada rolunu canlandıran aktyor olduqca təbii görünür.

Aktyorlar İlham Babayev (İnək), Süleyman Süleymanov (Xoruz) isə tamaşada xeyir qüvvələrin təmsilçiləridir. Aktyorlar İbad Nəbiyev, Arzu Səfərov, Əfsanə Ələsgərova tamaşanın finalında görünsələr də, hadisələrin açılmasında iştirak edirlər.

Quruluşçu rejissor Şirzad Abutalıbov maraqlı tamaşa yaratmağa nail olub. Quruluşçu rəssam Rəfael Qədimovun səhnə tərtibatı uğurludur. Bəstəkar Əli Məmmədovun musiqisi, xüsusilə Fatmanın dilindən səslənən mahnılar tamaşanın ruhu ilə uyğundur.

Tamaşa uşaqlarda xoş əhval-ruhiyyə yaradıb.

**Əli RZAYEV**

## Güləş yarışında qaliblər müəyyənləşib

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Uşaq-gənclər idman məktəbi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə güləş üzrə yarış keçirilib. Uşaq-gənclər idman məktəbinin sərbəst güləş qruplarının idmançıları arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında keçirilən güləş yarışında 4 çəki dərəcəsi üzrə 30-a yaxın idmançı mübarizə aparıb.

Gərgin keçən görüşlərdən sonra Orxan Rüstəmli, Özcan Musayev, Murad Bağırov və Coşqun Əhmədli müvafiq olaraq 32, 36, 42 və 48 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Qaliblərə Gənclər və İdman İdarəsinin diplomları təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi *əşya əmlaklarının satın alınması məqsədilə tender elan edir*

Tender 2 (iki) lot üzrə keçirilir.

*Lot-1: payız-qış mövsümü üçün müxtəlif növ əşya əmlaklarının satın alınması*

*Lot-2: hərbi ayaqqabıların satın alınması.*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-yüksək keyfiyyət, aşağı qiymət və müqavilənin vaxtında yerinə yetirilməsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş "Əsas şərtlər" toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsindən (əlaqələndirici şəxs: Cabbarov Murad Rasim oğlu, tel: 544-48-34) ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-iddiaçının maddi-texniki bazası.

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri. Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri möhürlənmiş, ikiqat zərfdə 20 oktyabr 2017-ci il tarixdə saat $11^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyinin Maliyyə-təsərrüfat şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 oktyabr 2017-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsində yerləşən Fövqəladə Hallar Nazirliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 766